*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2009-cu il 24 avqust tarixli 23-6 saylı Qərarı ilə təsdiq edilmiş, 2011-ci il 23 avqust tarixli 6/15-7 saylı və 2013-cü il 11 aprel tarixli 3/14 saylı qərarları ilə dəyişikliklər edilmişdir.*

*Razılaşdırılmışdır:*

*Azərbaycan Respublikası Mərkəzi Bankının sədri*

*____________________E.S.RÜSTƏMOV*

*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri*

*____________________ M.M.PƏNAHOV*

## Bələdiyyə seçkilərində seçki fondlarına daxil olmuş pul vəsaitlərinin geri qaytarılması qaydaları haqqında

## T Ə L İ M A T

1. Bələdiyyə seçkiləri zamanı bələdiyyə üzvlüyünə namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının seçki fondlarına daxil olan pul vəsaitlərinin geri qaytarılması qaydaları Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 90.5 – 90.7-ci, 226.4-cü, 230-cu, 232-ci və 233-cü maddələri ilə müəyyən edilir.

2. Müvafiq seçki komissiyasında qeydə alınmamış namizəd, namizədləri qeydə alınmamış siyasi partiya, siyasi partiyaların bloku yekun maliyyə hesabatı təqdim edilənədək seçki fondunun xərclənməmiş pul vəsaitlərini (göndərilmə xərclərinin çıxılması şərti ilə) köçürülən ianələrin məbləğlərinin proporsional nisbətinə uyğun olaraq ianəçi vətəndaşlara və hüquqi şəxslərə qaytara bilər. Qeydə alınmamış namizəd, namizədi qeydə alınmamış siyasi partiya, siyasi partiyaların bloku bu hüquqdan istifadə etmədikdə, xərclənməmiş pul vəsaiti müvafiq olaraq dövlət və ya bələdiyyə büdcəsinə köçürülür.

3. Qeydə alınmış namizədə, namizədi qeydə alınmış siyasi partiyaya, siyasi partiyaların blokuna ictimai teleradio təşkilatına və dövri nəşrlərin redaksiyalarına pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərini ödəyənədək onların seçki fonduna pul ianəsi köçürmüş vətəndaşlara və hüquqi şəxslərə seçki fondlarının xərclənməmiş pul vəsaitini qaytarmaq qadağandır.

4. Namizədin, qeydə alınmış namizədin irəli sürüldüyü bələdiyyə dəyişdikdə, o, xüsusi seçki hesabının qalıq vəsaitini könüllü ianə vermiş şəxslərə, hüquqi şəxslərə proporsional əsasda qaytarmalıdır.

5. Səsvermədə iştirak etmiş və seçicilərin etibarlı hesab edilmiş səslərinin azı 3 faizini toplamış namizəd və ya seçilən sayılmış, habelə səsvermə gününədək Seçki Məcəlləsinin 73-1.3-cü maddəsində göstərilən məcburedici hallara görə namizədliyini geri götürmüş qeydə alınmış namizəd, bə-

lədiyyələrin yarısından çoxunda namizədləri qeydə alınmış siyasi partiya, siyasi partiyaların bloku səsvermə günündən sonra 15 gün müddətində bələdiyyənin onların seçki fondlarına köçürdüyü vəsaitin xərclənməmiş hissəsini həmin bələdiyyəyə qaytarmağa borcludur.

Bu müddət başa çatdıqda müvafiq bank müvafiq bələdiyyənin məktubunda göstərilmiş pul vəsaitini mübahisəsiz qaydada onların hesabına köçürməlidir.

6. Namizədlərin seçki fondlarının xüsusi hesabında qalmış pul vəsaitini müvafiq seçki komissiyasının yazılı göstərişinə uyğun olaraq müvəkkil bank səsvermə günündən 30 gün keçdikdən sonra müvafiq bələdiyyə büdcəsinin mədaxilinə köçürməlidir.

7. Seçki fondunda pul vəsaiti olmadıqda və yaxud çatışmadıqda bələdiyyə pul vəsaitinin qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyalar bloku tərəfindən qaytarılması, habelə siyasi partiyalara, siyasi partiyaların bloklarına verilmiş pulsuz efir vaxtının və dövri nəşrdə ayrılmış yerin dəyərinin ödənilməsi onların öz vəsaiti hesabına həyata keçirilir.

8. Seçki Məcəlləsinin 230-cu maddəsində və bu Təlimatın 5-ci bəndində nəzərdə tutulmayan qeydə alınmış namizəd yekun maliyyə hesabatının verilməsi ilə yanaşı müvafiq vəsaitin qaytarılmasını da öz üzərinə götürürsə, bələdiyyə büdcəsinin geri qaytarılası vəsaitini səsvermə günündən başlayaraq 6 ay müddətində müvafiq bələdiyyənin hesabına qaytara bilər.

9. Seçki Məcəlləsinin 230-cu maddəsində nəzərdə tutulmayan və həmin maddənin tələblərini yekun maliyyə hesabatı verilənədək yerinə yetirməyən siyasi partiya, siyasi partiyaların bloku Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş müddətdə teleradio verilişləri təşkilatları və dövri nəşr redaksiyaları qarşısında müvafiq pul vəsaitinin ödənilməsi haqqında öhdəlik götürübsə, bələdiyyə büdcəsinin vəsaitlərinin, habelə istifadə edilmiş pulsuz efir vaxtının və dövri nəşrdə pulsuz ayrılmış yerin dəyərini səsvermə günündən başlayaraq 6 ay müddətində ödəmək üçün onlara möhlət verilə bilər.

10. Bu Təlimatın 8-ci və 9-cu bəndlərində nəzərdə tutulan öhdəliklər yerinə yetirilmədikdə və vəsaitin qaytarılması haqqında öhdəlikdə göstərilən müddət başa çatdıqda vəsait məhkəmə qaydasında qaytarılır.

11. Seçki Məcəlləsinin 230-cu maddəsində nəzərdə tutulmayan və bu Təlimatın 8-ci və 9-cu bəndlərində göstərilən tələbləri yerinə yetirməyən qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku yekun maliyyə hesabatı verilənədək göstərilən öhdəliyi götürmədikdə yekun maliyyə hesabatının verilməsi müddəti başa çatanadək pul vəsaiti məhkəmə qaydasında qaytarılır.

12. Namizəd, qeydə alınmış namizəd statusunu itirdikdə namizədlərin, qeydə alınmış namizədlərin üzərinə qoyulmuş öhdəliklər namizədin, qeydə alınmış namizəd sayılmış vətəndaşın üzərinə qoyulur. Namizəd, qeydə alınmış namizəd siyasi partiya, siyasi partiyaların bloku tərəfindən irəli sürülübsə, siyasi partiyanın, siyasi partiyalar blokunun üzərinə qoyulmuş öhdəliklər seçkilər qurtardıqda seçkilərdə iştirak etmiş siyasi partiyanın, siyasi partiyalar blokunun tərkibində iştirak etmiş siyasi partiyaların üzərinə qoyulur.